# Koronavirusla mübarizədə dünya ölkələrinin həmrəyliyə ehtiyacı var



Zəngilanlı, Oqtay.

***şair-publisist***

Mən Ələkbərov Oqtay İsgəndər oğlu 1993-cü ilin oktyabrında yaşadığım Zəngilan rayonunun Ermənistan silahlı qüvvələri tərəfindən havadarlarının köməyi ilə işğal edilməsi nəticəsində Araz çayını keçməklə İran İslam Respublikasına oradan da Bakı şəhərinə gəlmişəm.

Mən 81 illik ömür yolumun 74 ilini elmə, təhsilə, ədəbiyyata və musiqiyə sərf etmiş bir ziyalı olaraq ölkəmizin dilini, tarixini, coğrafiyasını öyrənib mənimsəməyə çalışmışam. Məşhur alimlərin bir çoxunun həyatını, fikirlərini düşüncə süzgəcimdən keçirib təhlillər edib elmi araşdırmalar, axtarışlar, tədqiqat işləri aparmışam. Bu gün bütün dünyada 200-dən artıq dövləti cənginə almış Koronovirus (Covid-19) pandemiyasının yayılmasının qarşısını almaq üçün araşdırmalar aparılır.

Hazırda dünyanın güclü iqtisadiyyata, böyük maliyyə imkanlarına, hərbi gücə malik olan ən güclü üçlüyü-ABŞ, Çin, Rusiyadır. Mənim müraciətim ilk növbədə ABŞ prezidenti Donald Tramp, Çin prezidenti Chen Zhu, Rusiya Federasiyasının prezidenti Vladimir Putin və digər qərbi Avropanın inkişaf etmiş ölkələrinə -İngiltərə, Almaniya, Fransa, İtaliya, İspaniya, Portuqaliya, Hollandiya kimi dövlət başçılarınadır. Bu dövlətlər müxtəlif tarixi dövrlərdə öz ölkələrindən uzaqlarda çoxlu müstəmləkələri olmuş dövlətlərdir.



Mən 1969-1970-ci illərdə orta məktəbdə 9-cu sinif şagirdlərinə "Xarici ölkələrin iqtisadi coğrafiyası" fənnindən dərs keçərkən dünya əhalisi mövzusunun tədrisi zamanı göstərmişdim ki, yer kürəsinin əhalisinin sayı 3.5 milyard nəfərdən artıqdır. Müasir dövrümüzdə isə dünya əhalisinin sayı hesablamalara görə 35 il ərzində artaraq 2019-cu ildə verilən məlumata görə 7.8 milyard nəfərə çatmışdır. Yer kürəsinin əhalisinin təbii artımı yəni doğumun ölümdən çox olması hesabına artır. Yer kürəsinin əhalisinin coşqun artımı və ya çox zaman deyildiyi kimi "demoqrafik partlayış" çoxlu mürəkkəb problemlər doğurur. Bu zaman mənim orta məktəbdə 9-cu sinif şagirdlərinə Maltus nəzəriyyəsi barədə söylədiklərim gözümün önünə gəlir.

XVIII əsrin ikinci yarısı, XIX əsrin əvvəllərində yaşamış iqtisadçı, keşiş Ost-hind şirkəti kollecində müasir tarix və siyasi-iqtisad kafedrasının professoru Maltus Tomas Robert Böyük Britaniyada vulqar siyasi iqtisadın əsasını qoyanlardan biri olmuşdur.

Maltus nəzəriyyəsinə görə yaşayış vasitələrinin artımı əhali artımından geri qalır. Adamlar bioloji xüsusiyyətlərindən asılı olaraq həndəsi silsilə ilə yaşayış vasitələrinin miqdarı isə yalnız ədədi silsilə ilə artır.

Maltusa görə əhalinin sayı və yaşayış vasitələrinin miqdarı arasındakı vəziyyətin tənzimlənməsi üçün geniş insan kütləsini məhv edən epidemiya, aclıq, müharibə və s. labüddür.

Elmi texniki tərəqqinin nəticəsində bugünkü dünyada bu nəzəriyyə öz əhəmiyyətini itirib.

Böyük Oktyabr Sosialist İnqilabının qələbəsindən sonra başda SSRİ deyilən dövlət olmaqla 14 sosialist dövləti yaranmışdır, yəni dünyada yeni bir təsərrüfat sistemi meydana gəlmişdir. O zaman bu ölkələr (QİYŞ) Qarşılıqlı İqtisadi Yardım Şurası deyilən bir sistem yaratmışdı. O dövrdə başda SSRİ olmaqla sosialist ölkələri var idi. Müasir dünyamızda nə sosialist ölkələri, nə də Marksizm-Leninizm nəzəriyyəsi əsasında qurulan sosializm sistemi yoxdur.

Çin Xalq Respublikası, Amerika Birləşmiş Ştatları və Rusiya Federasiyasının rəhbərləri: - Siz mənə və dünyaya aydınlaşdırın ki, hansı kiçik dövlətlərin sizə hücumu ola bilər? Gecə-gündüz yeni-yeni silahlar yaratmaq uğrunda yarışa girmisiniz. Dünyaya ağalıq etmək istəyən iddialı başçılarsınız. Gözünüzün önünə gətirin ki, bir zamanlar dünyanı lərzəyə gətirən Makedoniyalı İsgəndər, monqol-tatar Fateh Çingiz xan, Misir fironları, Osmanlı İmperiya başçıları dünyadan nə apara bildi? Siz düşünün ki, yığdığınız silahlar bir gün sizin öz ölkənizi və əhalinizi məhv edə bilər. Çin dövləti ərazisində Uhan şəhərində yaradılan koronavirus (Covid-19) kimi fəlakət törədən bir bəlanı yaradıb sonra Amerika ilə Çinin bir-birini ittiham etməsi nə verə bilər? Bu gün yaratdığınız koronavirus deyilən bir gözəgörünməz qüvvənin əsirinə çevrilib dünyanı əsarət altına aldığı səssiz bir silahla mübarizə aparırsınız və acizlik çəkirsiniz. Bir anlığa gözünüzün önünə gətirin ki, 2019-cu ildə müxtəlif mənbələrdə verilən məlumatlara görə dünyada 130 milyon aclıq çəkən insan var. Böyük dövlətlərin həyata keçirdiyi planlar əsasında törədilən qırğınlar, evləri dağılan insanlar, öz yurd-yuvalarından baş götürüb başqa dövlətlərin ərazisinə qaçırlar. Və özünə sığınacaq tapmaq ümidi ilə Aralıq dənizi və digər dənizlərdən Avropaya getmək istəyən körpə uşaqlar, yaşlı insanlar, qadınlı, kişili insanların dənizlərdə boğulmasının şahidi oluruq. Gözəl bir ifadə işlənir ki, bir körpənin göz yaşları bütün dünya var-dövləti ilə əvəzlənə bilməz. Ancaq hazırda 10 minlərlə körpələr silah səslərindən dəhşətə gəlir, göz yaşı tökürlər. Sizin hər biriniz o körpələri öz övladlarınız bilmiş olsaydınız nə edərdiniz? Düşünün ki, onlar sizin övladlarınızdı. Siz qüdrətli dövlət başçıları hər biriniz dərindən düşünün, gecə-gündüz istehsal olunan silahlar, böyük ölçülü raketlər, müxtəlif qitələrarası təyyarə uçuşları və onlardan xaric edilən zəhərli qazların hesabına atmosferin ozon təbəqəsinin deşilməsi baş verir. Atmosferin aşağı təbəqəsində o qədər çoxsaylı uçuşlar baş verir ki sanki bu hörümçək toruna bənzər bir mənzərə yaradır. Son zamanlar alimlərin hesablamasına görə yerdə temperaturanın 0.78 dərəcə qızmasının nəticəsidir ki, təbiət qanunlarının tarazlığı pozulur və Yer kürəsinin ayrı-ayrı ərazilərində anormal hadisələr-daşqınlar, sellər,zəlzələlər, vulkan püskürmələri, güclü tufanlar yanğınlar, sürüşmələr baş verir, istər quruda, istər dəniz və okeanlarda.

Hazırda bütün dövlətlər hamımızın ümumi evimiz olan Yer kürəsini qorumağa borcluyuq və bir cəhəti də nəzərə çatdırıram ki, Uca Allah Yerə göndərdiyi müqəddəs kitablarda insanları haqq-ədalət yoluna səsləmişdi. Bütün insanlar bilməlidir ki, vaxtilə yeri-göyü Yaradan Uca Tanrı bütün bəşəriyyətin əcdadı olan Adəmlə Həvvanı dünyaya gətirmişdir və insanların hamısı bu ilk yaranışın varisləridir.

Dil tarixçisi, filologiya elmləri doktoru, professor, əməkdər elm xadimi Qəzənfər Kazımov məşhur alman dilçisi Avqust Şlexer nəzəriyyəsinə tərəfdar çıxır. O, bütün dünya dillərinin mənşə etibarilə bir kökdən yaranması barədə konsepsiyanı doğru sayır və müdafiə edir. A.Şlexerə görə müasir türk, rus, ingilis, ərəb, fars və digər dillər vahid kökdən- ulu dildən yaranıb. Ulu dil 35-40 min illik bir müddət ərzində böyük inkişaf yolu keçərək protodillərə parçalanmış, protodillərin inkişafı isə yeni dil ailələrinin yaranması ilə nəticələnmişdir. Bu hadisə ibtidai cəmiyyətin dağılması dövründə baş vermişdir.

Bu gün Yer kürəsində olan dünya əhalisi Koronavirusa qarşı mübarizədə həmrəy olmalıdır.

Bütün yuxarıda göstərilənləri nəzərdən keçirdikdən sonra mən "Sorma məndən sən haralı" adlı bir mövzuya müraciət etmişəm. İlkin misraları da elə - "Sorma məndən sən haralı, Sən haralı, mən oralı!" - bu düşüncələrim üzərində qurmuşam:

Adəm-Həvva övladıyıq, bir anadan doğulmuşuq,
Dinimiz bir, dilimiz bir, eyni dildə danışmışıq.
İllər ötüb, sən də, mən də pərən-pərən dağılmışıq,
Tale bizi yadlaşdırdı, olduq ayrı el-obalı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Bəni-israil övladı, möcüzəli Musa mənəm,
Dara çəkilmiş peyğəmbər, Məryəm oğlu İsa mənəm,
Rəbbin Həzrəti-Rəsulu, Məhəmmədəm, islam dinəm.
Eşq olsun peyğəmbərlərə, olaq Allaha dualı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Asiyalı, Avropalı, avropoid irqindənik,
Qıvrım saçlı bir zənciyik və neqroid irqindənik,
Asiyalı bir insanıq, monqoloid irqindənik,
Çinli, hindli, istər yapon, fərq eləməz kim haralı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Əcdadımız Adəm –Həvva, atabirik, anabirik,
Bir anadan süd əmmişik, canıbirik, qanıbirik,
Bütün dillər, bütün dinlər eyni etnos nəslibirik,
İtirik doğmalığı, gəzirik gendən aralı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Bu gün bəşər övladının var birliyə ehtiyacı,
Görünməzdir düşmənimiz, virusların odur tacı,
Hər bir millət bu bəladan çəkir min bir ağrı-acı,
Bir soy-kökdən yaranmışıq sarı rəngli, ağ-qaralı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Erməniyə aid deyil bəşərilik, ey insanlar,
Soy-kökü yox, bir toplumdur, uydururlar min yalanlar,
Xocalını məhv elədi, Sarkisyanlar, Köçəryanlar,
Erməniyə nifrət edir bəşəriyyət, hər Xocalı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Əcdadımız ilk yaranış Adəm hanı, Həvva hanı?!
Hanı Məhəmməd peyğəmbər?! Musa hanı, İsa hanı?!
Kimlər gəlib kimlər gedib torpağa yem olub canı,
Bu dünyadan köçün sürüb neçə ölkələr kralı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

Sənli, mənli hər birimiz yer üzünün övladıyıq,
Milli ruhlu həm bəşəri yaradanın icadıyıq,
Gələcəkdə doğulacaq körpələrin əcdadıyıq,
Sən də mənsən, mən də sənəm Oqtay, vermə bu sualı,
Sorma məndən sən haralı, sən haralı, mən oralı!

***2020***